**UOT 94**

# I ŞAH ABBASIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ SƏFƏVİ-İSPANİYA ƏLAQƏLƏRİ

**Sevinc QURBANOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 24 may 2023; çapa qəbul edilmişdir: 9 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 24th of May, 2023; accepted: 9th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *Səfəvi dövləti, I Şah Abbas, İspaniya, əlaqələr*

## Giriş

Şah I İsmayıldan sonra I Şah Abbas Səfəvilər dövlətinin qüdrətini yenidən bərpa etdi. O, hakimiyyətə gələndə Səfəvi dövlətinin həm daxili, həm də xarici vəziyyəti son dərəcə ağır idi. Dövlət xəzinəsi, demək olar ki, tamamilə boşalmışdı. Daxili çəkişmələrin dərinləşdiyi bu dövrdə, xaricdən qərbdə Osmanlı, şərqdə isə Özbək ordusu Səfəvi dövlətinə təzyiq göstərirdi. I Şah Abbas daxili mübahisələri həll edərək, ölkədə islahatlar həyata keçirdi.

1587-ci ildə Məhəmməd Xudabəndənin devrilməsi nəticəsində hakimiyyətə gələn I Şah Abbas (1571-1629) Osmanlı sultanı III Murada sülh təklifi ilə müraciət etdi. 1590-cı ilin martın 21-də iki dövlət arasında bağlanmış İstanbul sülh müqaviləsinə əsasən, Ərdəbil və Talış mahalları istisna olmaqla, Azərbaycan əraziləri Osmanlı imperiyasının nəzarətinə keçdi (9, s. 99; 8, 101-102). Beləliklə, Osmanlı dövləti ilə barışıq imzalanmış və ölkədə sabitlik yaranmışdı.

I Şah Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin Şərq və Qərb ölkələri ilə əlaqələri artmış, Hindistan, Çin, Osmanlı imperiyası, İtaliya şəhər-dövlətləri, Portuqaliya, İspaniya, İngiltərə və digər ölkələr ilə əlaqələr yaradılmışdı. Əgər Səfəvi dövlətinin Avropa ilə diplomatik münasibətlərinin əsası Şah I İsmayılın hakimiyyəti dövründə qoyulmuşdusa, məhz I Şah Abbasın dövründə bu münasibətləri inkişaf etdirmək mümkün olmuşdu. Səfəvi dövlətinin Avropa ölkələri ilə əlaqələri əsas iki istiqaməti əhatə edirdi: birinci istiqamət hərbi müttəfiqliyə, digəri isə ticarətə əsaslanırdı. Beləliklə, I Şah Abbasın hakimiyyəti Səfəvi dövləti üçün kifayət qədər uğurlu olmuşdur.

1581-ci ildə Portuqaliyanın İspaniyaya birləşdirilməsi Səfəvi dövlətinin İspaniya ilə əlaqələrinə təsir edən amillərdən biri idi. Azərbaycanın görkəmli tarixçisi Y.Mahmudova görə, "XVI əsrin sonundan fəal xarici siyasət aparmağa başlayan I Şah Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin qarşısında duran xarici siyasət vəzifələrindən biri Fars körfəzində Portuqaliyanın ağalığına son qoymaq və Hind okeanına çıxmaq idi" (9, s. 100).

## 1. İspaniya XVI əsrin sonu-XVII əsrin ilk onilliklərində

1598-ci ildə İspaniyada taxta çıxan kral III Filipp (1578-1621) 1621-ci ilə qədər hakimiyyətdə qalmışdı. Onun sələfi kral II Filippin apardığı müharibələr nəticəsində ölkənin iqtisadi və maliyyə vəziyyəti kəskin şəkildə pisləşmişdi. Bu səbəbdən də, III Filipp

[*] *doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu; Azərbaycan Dillər Universiteti*
*e-mail:* sevinc.qurbanova.adu@gmail.com

ölkəsinin iştirak etdiyi müharibələrə diplomatiya və danışıqlar yolu ilə son qoymağa çalışırdı. Onun hakimiyyəti dövründə İspaniyanın İngiltərə, Fransa və Hollandiya ilə münasibətlərində müəyyən sabitlik yaranmışdı. Ümumilikdə, III Filippin xarici siyasəti onun daxili siyasətindən daha uğurlu idi.

Məhz III Filippin hakimiyyəti dövründə İspaniya ilə Səfəvi dövləti arasındakı əlaqələri genişləndirmək mümkün olmuşdu. Qeyd etmək lazımdır ki, bu dövrdə İspaniyada, katolik kilsəsinin nəzarətində olan dini ordenlər aparıcı rol oynayır və şərqə genişlənmə siyasətində onlardan istifadə edilirdi (10, s. 32). Avqustinlər ordeni I Şah Abbasın icazəsi ilə İsfahanda öz missiyasını yaratmış və burada kilsə tikməyə nail olmuşdu (5, s. 224). Avqustinlər ordeni üzərində İspaniyanın təsiri kifayət qədər güclü idi.

Dini amil Kəngər körfəzi rayonunda bir-biri ilə rəqabət aparan İspaniya və İngiltərə arasındakı münasibətlərdə də özünü göstərirdi. Səfəvi dövlətinin İngiltərə ilə əlaqələrinin genişlənməsindən narahat olan İspaniya kralı III Filipp 1598-ci ildə I Şah Abbasa göndərdiyi məktubda ingilisləri katolik kilsəsinin düşməni adlandırmışdı. İspaniya krallığı və Səfəvi dövləti arasında həyata keçirilən bir neçə elçilik mübadiləsi nəticəsində avqustinlər İsfahanda məskunlaşmış və faktiki olaraq, iki ölkə arasındakı əlaqələrdə vasitəçilərə çevrilmişdilər (3, s. 247).

İspaniyadan Səfəvi sarayına davamlı olaraq elçilər göndərilməsi krallığın Səfəvilərlə əlaqələri genişləndirmək istəyini sübut edirdi. III Filippin öz elçilərini İsfahana göndərməkdə əsas məqsədi Osmanlı dövlətinə qarşı birgə çıxış etmək planını müzakirə etmək və Hörmüz adasında ingilislərin möhkəmlənməsinin qarşısını almaq idi.

## 2. Səfəvi dövlətinin İspaniya ilə əlaqələrinin əsas istiqamətləri

Ümumiyyətlə, Səfəvi dövləti tarixində Avropa ölkələri ilə, o cümlədən İspaniya ilə daha geniş əlaqələr I Şah Abbasın hakimiyyəti dövründə qurulmuşdu. İspaniya-Səfəvi münasibətlərinin əsas istiqamətini Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq siyasəti təşkil edirdi. I Şah Abbas Osmanlı imperiyasına qarşı ittifaq yaratmaq məqsədilə Avropa ölkələrinə müraciətlər etmiş, hətta avropalı krallar ilə danışıqlar aparmaq üçün 1599-cu ilin mayında Hüseynəli bəy Bayatın rəhbərliyi altında nümayəndə heyəti göndərmişdi. Nümayəndə heyətinin səfər etdiyi ölkələr sırasına Rusiya, Polşa, Almaniya, Çexiya, İtaliya şəhər dövlətləri, Fransa və İspaniya daxil idi (4, s. 1).

Səfəvi dövləti ilə əlaqələr qurmaqda İspaniyanın gizli niyyəti var idi. O, Səfəvilərlə Osmanlıları daimi müharibə vəziyyətində saxlamaqda və bu yolla Osmanlı qüvvələrini öz sərhədlərindən yayındırmaq və uzaqlaşırmaqda maraqlı idi. I Şah Abbasa yardım təklif edən İspaniya, eyni zamanda, Səfəvi dövlətini Osmanlıya qarşı hücum etməyə təhrik edirdi (12, s. 62-63).

Səfəvi dövlətinin İspaniya ilə münasibətlərində ticarət əlaqələri də əhəmiyyətli yer tuturdu. İstər I Şah Abbas, istərsə də kral III Filipp qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsində maraqlı idilər. 1619-cu ildə III Filippin Şah Abbasa göndərdiyi məktubun məzmunundan aydın olur ki, o, Səfəvi dövlət ilə dostluq və ticarət müqaviləsi imzalamağa çalışırdı. Sözsüz ki, burada əsas məqsəd bu yolla ingilisləri ipək ticarətindən sıxışdırmaq idi. Öz növbəsində, I Şah Abbas İspaniya ilə ticarət haqqında müqavilə imzalamaq barədə danışıqlar aparmağa razılıq vermişdi (7, s. 338-339).

İspaniya və Portuqaliya kralı III Filippin yeganə məqsədi Osmanlı imperiyasına qarşı Səfəvi dövləti ilə hərbi ittifaq yaratmaq deyildi. O, həmçinin ingilislər və hollandların Kəngər körfəzində möhkəmlənməsinin qarşısını almaq istəyirdi və bu məqsədlə də, Səfəvi dövləti ilə yaxınlaşmağa çalışırdı. Regionda İspaniyanın mövqelərinin zəifləməsindən istifadə edən Səfəvi dövləti isə, 1602-ci ildə Bəhreyn adasını ələ keçirmişdi (9, s. 104).

Qeyd etmək lazımdır ki, əsrlər boyu Şərq-Qərb dəniz ticarəti yolunda mühüm məntəqə olan Hörmüz adası Səfəvi-İspaniya əlaqələrində mübahisə obyekti olaraq qalırdı.

XVI əsrin əvvəllərində Hörmüz adası Səfəvi dövlətinin nəzarətində olmuş, sonradan isə Portuqaliyanın əlinə keçmişdi. Portuqaliyanın təkcə Hörmüz adasını deyil, bütövlükdə Kəngər körfəzini öz nəzarəti altına alması Səfəvilər üçün böyük iqtisadi itki idi. 1581-ci ildə Portuqaliyanın İspaniyaya birləşdirilməsindən sonra birincinin Asiyada olan müstəmləkələri də ikincinin nəzarətinə keçdi (1, s. 86). Şübhəsiz ki, Hörmüz ərazisi istər Səfəvi dövləti, istərsə də İspaniya-Portuqaliya üçün həm ticarət, həm də strateji cəhətdən çox önəmli idi. Pireneylilər Hörmüzdən gəlir mənbəyi kimi istifadə edirdilər (11, s. 115).

Bəhreyn adasının Səfəvilərin əlinə keçməsi İspaniyada mənfi reaksiyaya səbəb olmuşdu. Məsələn, 1608-ci ildə, I Şah Abbas ın İspaniyaya göndərdiyi elçi Allahverdi bəy Türkmən, III Filippin elçisi Antonio de Qovea ilə birlikdə geri qayıtmış və ispan kralının Səfəvi şahına ünvanladığı məktubu da özü ilə gətirmişdi. Məktubda kral Osmanlı dövləti üzərində qazandığı qələbələr münasibətilə Şah Abbası təbrik etmiş, İspaniyanın Qara dənizdə türk donanmasına hücumu haqqında məlumat vermiş, Səfəvi dövləti ərazisində katolik keşişlərinə yaxşı münasibətin göstərilməsini xahiş etmiş və nəhayət Bəhreyn adasının tutulması ilə bağlı narazılığını bildirmişdi (9, s. 106).

Bu dövrdə Səfəvi-İspaniya əlaqələrinin inkişafına, ispan kralından asılılığı qəbul etmək istəməyən portuqaliyalılar mane olmağa çalışırdılar. 1613-cü ildə III Filippin elçi Don Garsia de Silva və Figeroanı Səfəvilər dövlətinə göndərməsi və elçinin Hörmüzə getməsinə, Hindistanın vitse-kralı, Portuqaliya əsilli D.J.Azevedo tərəfindən imkan verilməməsi bunu təsdiq edən faktlardan biridir. İspanlar və portuqaliyalılar arasında birliyin olmaması həm də onların Səfəvi dövləti ilə əlaqələrinin zəifləməsinə və Kəngər körfəzi regionunda ingilis və hollandların möhkəmlənməsinə şərait yaradan amillərdən idi (2, s. 8-11). Bu da Səfəvi-İspaniya münasibətlərində gərginliyin artmasına gətirib çıxarırdı.

### 3. I Şah Abbasın "Böyük elçiliyi" İspaniyada

Artıq qeyd olunduğu kimi, I Şah Abbas 1599-cu ildə Hüseynəli bəy Bayatın başçılıq etdiyi nümayəndə heyətini Avropa ölkələrinə, o cümlədən İspaniyaya göndərmişdi. Tarixə "Böyük elçilik" adı ilə daxil olan bu səfərin əsas məqsədi Qərb ölkələri ilə hərbi, siyasi və ticarət sahəsində müqavilələr bağlamaq idi. I Şah Abbas İspaniya kralı da daxil olmaqla, Avropa hökmdarlarına göndərdiyi məktubda, Səfəvi dövləti ərazisində xristianlara yaşamaq və öz kilsələrini tikmək icazəsi verəcəyini vəd edirdi (6, s. 103-104) və təkliflərində ciddi olduğuna avropalıları bu yolla inandırmağa çalışırdı.

Səfəvi şahı səfirliyi əvvəlcə İspaniyaya göndərməyi və Osmanlı dövlətinə qarşı eyni vaxtda hərbi əməliyyatlar aparmaq üçün bu ölkə ilə razılığa gəlməyi planlaşdırmışdı, lakin o zaman Səfəvi dövlətində səfərdə olan və siyasi kələkbazlar kimi tanınan ingilislər Antoni və Robert Şerli qardaşlarının təklifi ilə plana dəyişikliklər edilmişdi və nəticədə, nümayəndə heyətini təkcə İspaniyaya deyil, Avropanın digər ölkələrinə də göndərmək qərarı alınmışdı. Antoni Şerli isə Avropaya göndərilən nümayəndə heyətini müşayiət etməli idi. Beləliklə, "Böyük elçilik" İspaniya ilə yanaşı, Avropanın digər ölkələrində də diplomatik danışıqlar aparmışdı.

Hüseynəli bəy Bayatın rəhbərliyi altında nümayəndə heyəti İspaniyaya çatmamış, Praqadakı ispan səfiri Gillyen de San Klement onun fəaliyyətini diqqətlə izləyirdi. O, Praqada Müqəddəs Roma İmperiyasının kralı II Rudolfun elçilik ilə apardığı danışıqlar və I Şah Abbasın təklifləri barədə məlumat əldə edərək, İspaniyaya göndərmişdi (6, s. 83-99).

"Böyük elçilik" İspaniyada yüksək səviyyədə qarşılanmışdı. Elçilər ölkə ərazisinə daxil olduqdan, o dövrdə İspaniyanın mərkəzi olan Valyadolid şəhərinə çatana qədər onları müşayiət etmək üçün nümayəndələr təyin olunmuşdu. Elçiliyin İspaniya səfəri Barselona şəhərindən başlamış, on gün bu şəhərdə, 3 gün Saraqosada qalan elçilər, 1601-ci il avqustun 13-də Valyadolid şəhərinə çatmışdılar (6, s. 126). Hüseynəli bəyin rəhbərlik

etdiyi nümayəndə heyəti İspan kralı III Filipp tərəfindən qəbul edilmişdi (1, s. 86). İspaniyada qaldığı müddətdə elçiliyin xərcləri kral xəzinəsi hesabına ödənilirdi. Görüş zamanı Hüseynəli bəy Bayat I Şah Abbasın məktubunu krala təqdim etmişdi. Məktubda Səfəvi şahı III Filippə onunla dostluq və müttəfiqlik əlaqələri yaratmaq, iki ölkə arasında səfirlər mübadiləsi aparmaq, Hörmüz məsələsində razılığa gəlmək istədiyini bildirmiş və təklifinə cavabın dərhal verilməsini qeyd etmişdi (6, s. 128-129). İspan kralı isə Səfəvi dövlətinin təkliflərindən təsirləndiyini və məktuba tezliklə cavab verəcəyini bildirmişdi. Bunun ardınca məktub İspaniya Dövlət Şurasında müzakirə olunduqdan sonra Səfəvi dövlətinə iki elçi göndərmək qərara alınmışdı (4, s. 291). Bu onu sübut edir ki, Səfəvi şahının dostluq və müttəfiqlik təklifləri III Filipp tərəfindən də müsbət qarşılanmışdı.

Qeyd etmək lazımdır ki, Hüseynəli bəy Bayatın başçılıq etdiyi nümayəndə heyəti hələ Romada olarkən, onun üzvləri arasında parçalanma baş vermiş, onlardan biri xristianlığın təsiri altına düşmüş və dinini dəyişmişdi. Oxşar hal İspaniyada da baş vermiş, nümayəndə heyətindən daha 3 nəfər xristian olmuş və ispan kralı III Filipp onları öz himayəsinə qəbul etmişdi.

602-ci ilin martında Hüseynəli bəy Bayat İsfahana geri dönmüşdü. Fəal danışıqlar aparılmasına baxmayaraq, Səfəvi dövləti ilə İspaniya arasında hərbi müttəfiqlik haqqında müqavilə imzalanmadı. Bundan sonrakı dövrdə İspaniya tərəfinin I Şah Abbas ilə danışıqlara göndərdiyi elçilər onu Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etməyə çalışırdılar. İspaniya tərəfindən vəd edilən köməyin reallaşmaması isə, Səfəvi dövlətinin İngiltərə və Hollandiya ilə yaxınlaşmasının səbəblərindən biri idi.

**Nəticə**

Zəngin təbii ehtiyatlara malik olan və beynəlxalq ticarət yollarının üzərində yerləşən Azərbaycan həmişə Qərb ölkələrinin, o cümlədən İspaniyanın diqqətini cəlb etmişdir. Həyata keçirdiyi islahatlar və mərkəzləşmə siyasəti nəticəsində Səfəvi dövlətinin güclənməsinə nail olan I Şah Abbas həm də uğurlu xarici siyasət yürüdürdü. Onun hakimiyyəti dövründə Səfəvilərin İspaniya ilə diplomatik, siyasi və ticarət əlaqələri genişlənmişdi. Qara dəniz və Aralıq dənizi hövzəsində ənənəvi ticarət yollarının Osmanlı dövlətinin əlinə keçməsi ilə Səfəvi dövləti və İspaniya arasında ticarət əlaqələri yolunda maneə yarandı. Bu da Səfəvilərin iqtisadiyyatına mənfi təsir göstərirdi. Belə ki, Avropa ölkələri ilə ticarətdən əldə olunan gəlir Səfəvi dövlətinin xəzinəsini formalaşdıran əsas mənbələrdən biri idi. İpək isə bu dövlətlər arasındakı ticarətin strukturunda geniş yer tuturdu.

Səfəvi dövlətinin geniş tranzit imkanlara malik olması da İspaniyanın Səfəvilərlə ticarət əlaqələrini şərtləndirən amillərdən biri də idi. Səfəvi dövlətinin İspaniya ilə ticarət əlaqələrinin mövcudluğu iki ölkə arasında siyasi-diplomatik münasibətlərə də müsbət təsir göstərirdi.

I Şah Abbasın hakimiyyəti dövründə iki ölkə arasında müəyyən yaxınlaşma olmasına baxmayaraq, Kəngər körfəzi rayonunda onlar arasında rəqabət mövcud idi. Hörmüz adası ilə bağlı mübahisə I Şah Abbas ın dövründə yenidən kəskinləşmişdi. Nəticədə Səfəvi dövlətinin İngiltərə ilə müttəfiqlik əlaqələrinin yaranması, regionda onun köməyi ilə Səfəvi dövlətinin mövqeyinin güclənməsi Səfəvi-İspaniya arasında əlaqələrin zəifləməsinə gətirib çıxarmışdı.

## ƏDƏBİYYAT

1. Baxşəliyev A.B. Səfəvi dövlətinin Portuqaliya və İspaniya ilə münasibətləri // Bakı Universitetinin "Xəbərlər"i, 2009, №1, s. 84-90.
2. Borges G.A. The Iberian Union and the Portuguese Overseas Empire, 1600-1625: Ormuz and the Persian Gulf in the Global Politics of the Hispanic Monarchy // e-JPH, Vol. 12, number 2, December 2014, pp. 1-26
3. Contacts and Controversies between Muslims, Jews and Christians in the Ottoman Empire and Pre-Modern Iran / ed. C. Adang, S. Schmidtke. Würzburg: Ergon Verlag, 2010, 421 p.
4. Don Juan of Persia: A Shi`Ah Catholic, 1560-1604 / Translated and edited with an introduction by G. Le Strange. New York and London, Publishers Harper and Brothers, 389 p.
5. Heydarli G. Activities of Dominican and Augustinian Missionaries in the Territory of the Safavid Empire: İnterreligious Exchanges and Challenges // Constanta: Revista Română de Studii Eurasiatice, Anul XVI, 2020, №1-2, p. 217-228.
6. Fernandes, L.G. El imperio Luso-Español y la Persia Safávida. Tomo I (1582-1605). Madrid: Fundación Universitaria Española, 2006, 318 p.
7. Fernandes L.G. El imperio Luso-Español y la Persia Safávida. Tomo II (1606-1622). Madrid, Fundación Universitaria Española, 2009, 626 p.
8. Nəcəfli, T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında). Bakı: Turxan NPB, 2020, 520 s.
9. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (II половина XV-начало XVII века). Баку: Издательство Бакинского Университета, 1991, 264 с.
10. Mehrad N. Relaciones diplomáticas entre la Persia safávida y la España de Felipe III: el caso de la primera embajada // Librosdelacorte.es, nº4, año 4, invierno-primavera, 2012, pp. 22-47.
11. Məmmədova N.B. Hörmüz uğrunda Səfəvilərin mübarizəsi və nəticəsi // Bakı Universitetinin Xəbərləri, 2015, №2, s. 115-122
12. Рахмани, А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, 238 с.

***Резюме***

***Севиндж Гурбанова***

***Сефевидо-Испанские отношения во время правления шаха Аббаса I***

Шах Аббас I, пришедший к власти в 1587 г., провел реформы по восстановлению могущества Сефевидского государства. Помимо создания стабильности в стране, шах I Аббас проводил активную внешнюю политику. Именно в период его правления были восстановлены и расширены отношения Сефевидского государства как с Восточными государствами, так и со странами Запада. В период правления Шаха Аббаса I получили развитие отношения со странами Европы – Итальянскими городами-государствами, Англией, Голландией, Испанией, Португалией, Германией и другими странами. Среди этих государств особое внимание следует уделить отношениям Сефевидского государства с Испанией и Португалией.

Параллельно с этим приход к власти Филиппа III в Испании положительно сказался на развитии отношений с государством Сефевидов. Постоянная отправка Филиппом III своих представителей ко двору Сефевидов подтверждала его желание расширить отношения с Сефевидами. Хотя основным направлением отношений Сефевидского государства с Испанией была политика проведения совместной военной операции против Османского государства, помимо этого обе страны придавали большое значение и торговым отношениям. С другой стороны, конфликтным вопросом между обеими странами был контроль над стратегически и коммерчески важным островом Ормуз. В результате усиление англичан в районе Кангарского залива привело к ослаблению сефевидско-испанских отношений.

Шах Аббас I отправил делегацию в страны Европы, в том числе в Испанию, для укрепления

сефевидско-испанских отношений. Делегация во главе с Гусейнали беком Баятом была принята на высоком уровне Филиппом III, а предложения дружбы и союза шаха Аббаса I были восприняты положительно. Таким образом, в результате успешной внешней политики шаха Аббаса I государство Сефевидов расширило свои дипломатические, политические и торговые отношения с Испанией.

Таким образом, в представленной статье широко анализируется деятельность отношений Сефевидского государства с Испанией в конце XVI – начале XVII века.

***Ключевые слова:*** *государство Сефевидов, Шах I Аббас, Испания, отношения*

***Summary***

***Sevinj Gurbanova***

***Safavid-Spain Relations During the Reign of Shah I Abbas***

Shah I Abbas, who came to power in 1587, carried out reforms to restore the power of the Safavid state. In addition to creating stability in the country, Shah I Abbas pursued an active foreign policy. It was during his reign that the relations of the Safavid state with the Eastern states as well as with the Western countries were restored and expanded. During the reign of Shah I Abbas, relations with European countries - Italian city-states, England, Holland, Spain, Portugal, Germany and other countries were developed. Among these states, special attention should be paid to the relations of the Safavid state with Spain and Portugal.

In parallel, the coming to power of Philip III in Spain had a positive effect on the development of relations with the Safavid state. Philip III's constant sending of representatives to the Safavid palace confirmed his desire to expand relations with the Safavids. Although the main direction of the relations of the Safavid state with Spain was the policy of conducting a joint military operation against the Ottoman state, in addition to this, both countries also attached great importance to trade relations. On the other hand, the conflicting issue between both countries was the control over the strategically and commercially important Hormuz Island. As a result, the strengthening of the British in the Kangar Gulf region led to the weakening of Safavid-Spanish relations.

Shah I Abbas sent a delegation to European countries, including Spain, to strengthen Safavid-Spanish relations. The delegation headed by Huseynali bey Bayat was received at a high level by Philip III and Shah I Abbas` offers of friendship and alliance were positively received. Thus, as a result of the successful foreign policy of Shah I Abbas , the Safavid state expanded its diplomatic, political and trade relations with Spain. Thus, in the presented article, the directions of the relations of the Safavid state with Spain at the end of the 16th century and the beginning of the 17th century are extensively analyzed.

***Keywords:*** *Safavid state, Shah I Abbas, Spain, relations*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.